# "Üç çizgi" jurnalının Nizami Gəncəviyə həsr olunmuş yeni sayı

Eskişehir Azerbaycanlılar Dernegi Yayını olan "Üç Çizgi" dergisinin yeni, 19-cu sayı (Sayı 19/Eylül, 2021) çapdan çıxmışdır. Dərginin bu sayı Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş xüsusi buraxılışdır. Jurnalın müqəddiməsində baş redaktor Bəxtiyar Qarayev qeyd etmişdir ki, "Üç çizgi" jurnalının hər sayı Azərbaycanla bağlı önəmli hadisə və ya günlərə ithaf olunur. Bu sayı da dövlət başçımız İlham Əliyev tərəfindən verilən "Nizami Gəncəvi ili"nə həsr etməyi qərara aldıq".

Məqalədə ədəbiyyatşünas alimlərdən akademik İsa Həbibbəylinin "Nizami Gencevi ve rönesans meselesi", Nüşabə Araslının " Nizami Gencevi ve Kaşğarlı Mahmudun "Divanü Luğat-it-Türk"ü", Zəhra Allahverdiyevanın "Nizami Gencevinin nesil şeceresi üzerine notlar", Elnarə Akimovanın "Nizami Gencevi ve çocuk edebiyatı", Təhminə Bədəlovanın "Nizami Gencevinin oğluna mersiyesi", Ülkər Məmmədovanın "Nizami Gencevinin yaratıcılığında arkadaşlık kavramı" və digər məqalələr dərc olunmuşdur.




**Ədəbiyyat qəzeti.- 12 fevral.- 2022- ci il.- S. 25.**